

# Sözü qılıncdan kəsərli Lider

## Azərbaycanın 44 günlük informasiya müharibəsi siyasəti

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması" istiqaməti üzrə hazırlanmışdır**

*Günel ABBAS*

Azərbaycan erməni işğalçılarına qarşı 44 günlük Vətən müharibəsində hərbi, siyasi, eləcə də diplomatik və informasiya sahəsində qələbə qazandı. Prezident İlham Əliyevin İkinci Qarabağ savaşı müddətində və postmüharibə dövründə dünyanın müxtəlif nüfuzlu informasiya vasitələrinə verdiyi müsahibələr xalqımızın Zəfər çalmasında son dərəcə mühüm rol oynadı. Prezident İlham Əliyev 30-a yaxın xarici KİV nümayəndələri ilə müsahibələrində Azərbaycanın haqlı mövqeyini, müharibənin səbəblərini siyasi uzaqgörənliklə dünya auditoriyasının diqqətinə çatdırırdı. Odur ki, Prezident İlham Əliyev Vətən müharibəsində Azərbaycanın təkcə silahlı ordusunun deyil, eləcə də informasiya savaşının önündə getdi.

Milli Məclisin üzvü Tahir Rzayev "Yeni Azərbaycan"a açıqlamasında deyib ki, Azərbaycan 44 günlük Vətən müharibəsindəki tarixi qələbəsi ilə öz iradəsi və potensialını nümayiş etdirdi. O bildirib ki, Azərbaycan xalqı Prezident İlham Əliyevin strateji baxışlarına güvənərək, onun rəhbərliyi altında öz sözünü dedi, bütün dünyaya göstərdi ki, heç bir halda torpaqlarının bir qarışından belə imtina etməyəcək: "Həmin müddətdə Ermənistanın saxta təbliğat maşını artıq keçmişdə qalmış münaqişə vəziyyəti ilə bağlı həqiqətləri təhrif edirdi. Son illərdə Ölkə Prezidenti bütün mötəbər tribunalardan Azərbaycanın ədalətli mövqeyini dünyaya çatdırmaqla yanaşı, həm də qəbul etdirməyi də bacardı. Əslində, Vətən müharibəsinə qədər bizim qələbəmizin siyasi əsasları və elementləri artıq mövcud idi. Azərbaycan onun ardınca da hərbi qələbə qazanaraq torpaqları işğaldan azad etdi.

Çox mühüm bir məqamı da xatırlatmaq istərdim: Şuşa Bəyannaməsinin imzalandığı ərazi dağıntılardan ibarət idi. İki dövlət başçısının bəyannaməni imzaladıqları yerin fonu məhz Ermənistanın törətmiş olduğu dağıntılar idi. Bu tarixi hadisə dünya mediası, dünya ictimaiyyəti tərəfindən çox yaxından izlənilirdi. Ona görə də Ermənistanın vandalizminə məruz qalmış məkanın fon kimi seçilməsi təsadüfi deyildi. Cənab Prezident burada da strateji baxış sərgiləyərək Ermənistanın törətdiyi dağıntıların izlərini də dünyaya növbəti dəfə nümayiş etdirdi. Bir sözlə, Azərbaycanın beynəlxalq informasiya məkanında mövqelərini inamla qoruyaraq Ermənistanın təcavüzkar dövlət obrazını dünyaya tanıtmaqda davam edir. Ona görə də hərbi qələbəmizin ardınca informasiya mübarizəsində qazandığımız qələbəmizin əlamətləri də göz önündədir. Bundan sonra isə Ermənistanın həqiqətləri təhrifetmə istiqamətindəki fəaliyyəti ya tam nəticəsiz, ya da çox zəif olacaq".

Deputat Cavid Osmanov isə bildirib ki, Azərbaycanın zəfərlə başa vurduğu Vətən müharibəsində ölkəmizin ən güclü silahlarından biri də onun informasiya mübarizəsi idi: "Azərbaycan həm hərb, həm də informasiya meydanında qalib gəldi. Elə informasiya müharibəsinə də Prezident İlham Əliyev rəhbərlik edirdi. İkinci Qarabağ müharibəsi dövründə Prezidentin dünya ölkələrinin 30-dan çox KİV-nə müxtəlif səviyyələrdə verdiyi müsahibələr bizə bu istiqamətdə də uğur qazandırdı. Dövlət başçısının ensiklopedik biliyə sahib olması, bütün sahələrə dair verilən sualları beynəlxalq hüquq normalarına uyğun formada, haqq və ədaləti qoruyaraq, səbirli və təmkinli şəkildə cavablandırması ciddi əhəmiyyətə malik idi. Prezident bəzən sual verənlərin qərəzli mövqelərini ifşa edir, onların özünü ittiham edirdi. Bu, bizə böyük uğur qazandırdı. Həmin dövrdə jurnalistlərimiz, bütün media orqanları da Prezidenti nümunə götürərək silaha sarıldı. "Silah" dedikdə burada jurnalistin peşə silahından - sözündən, qələmindən söhbət gedir. İkinci Qarabağ savaşında yüksək səviyyədə aparılan informasiya müharibəsi Azərbaycanın Zəfər çalmasına zəmin yaradırdı. Bütün bunların nəticəsidir ki, biz ədalətsiz liklə idarə olunan dünyanı öz haqq işimizə inandıra bildik. Azərbaycan bütün dünyaya izah etdi ki, ədalətli müharibə aparır. İnformasiya müharibəsində düşmənin vandallığını ifşa edən Azərbaycan qələbə qazanmağa nail oldu".